2026. Volume 10, Number 1 *Pages 56-65*

UOT: 378.147:373.3(479.24)
DOI: https://doi.org/10.30546/09081.2026.1.1023

İBTİDAİ SİNİF MÜƏLLİMİ HAZIRLIĞININ PRİNSİPLƏRİ, QANUNAUYĞUNLUQLARI VƏ FUNKSİYALARI

Mahbuba MAMMADOVA Arziman
Azerbaijan State Pedagogical University
PhD in Pedagogy,
Doctoral candidate in the Doctor of Sciences program
ORCID: 0009-0009-4916-4982
Email: pedagogmm57@gmail.com
BAKI, AZƏRBAYCAN

Məqalə haqqında məlumat

Məqalənin tarixçəsi:
Daxil olub: 2025-11-08
Təkrar işlənmiş formada daxil olub: 2025-11-19
Qəbul edilib:2025-12-20
Onlayn əlçatandır: 2026-06-19

Açar sözlər:
ibtidai təhsil, müəllim hazırlığı, ibtidai sinif müəllimi, pedaqoji fəaliyyət, innovativ təlim, pedaqoji proses, təhsil sistemi, pedaqoji texnologiyalar, təhsil prinsipləri

Xülasə

Məqalədə ibtidai sinif müəllimi hazırlığının prinsipləri, qanunauyğunluqları və funksiyaları sistemli şəkildə təhlil edilmişdir. Müasir təhsil sistemində ibtidai sinif müəlliminin peşəkar hazırlığının strateji əhəmiyyəti əsaslandırılmış, müəllim hazırlığının humanistlik, elmilik, sistemlilik, ardıcıllıq, fəallıq və nəzəriyyə ilə praktikanın vəhdəti kimi əsas prinsipləri ətraflı izah olunmuşdur. Eyni zamanda müəllim hazırlığının qanunauyğunluqları — o cümlədən təhsil ilə cəmiyyətin qarşılıqlı əlaqəsi, şəxsiyyətin inkişafı ilə təlimin vəhdəti, nəzəri və praktik hazırlığın əlaqəsi, habelə fasiləsiz inkişaf qanunauyğunluğu — araşdırılmış, müəllim hazırlığının cəmiyyətin sosial-mədəni inkişafı ilə bağlılığı göstərilmişdir.

Məqalədə müəllim hazırlığının təhsilvermə, tərbiyəedici, inkişafetdirici, sosiallaşdırıcı, innovativ, diaqnostik, proqnostik, kommunikativ və inteqrativ funksiyaları müəyyən edilmiş və hər birinin məzmunu açıqlanmışdır. Həmçinin müasir dövrdə ibtidai sinif müəllimi hazırlığının aktual problemləri — nəzəri-praktik tarazlığın pozulması, rəqəmsal bacarıqların inkişaf etdirilməməsi və fasiləsiz peşəkar inkişafın tam təmin olunmaması — araşdırılmış, onların həlli yolları göstərilmişdir. Müəllim hazırlığının müasir tələblərə uyğun yenilənməsinin zəruriliyi əsaslandırılmışdır.

2521-6333/© 2026 The Author(s). Published by Baku Engineering University.
This is an open access article under the CC BY 4.0 license (http://creativecommons.org/licenses/by/4.0/).

PRINCIPLES, REGULARITIES AND FUNCTIONS OF PRIMARY TEACHER TRAINING

SUMMARY

The article extensively analyzes the principles, regularities and functions of primary school teacher training. The importance of professional training of primary school teachers in the modern education system is substantiated, the principles of humanism, science, systematicity, consistency and unity of theory and practice of teacher training are explained. At the same time, the main regularities of teacher training and its interaction with the development of society are examined.

The article identifies the educational, educational, developmental, socializing and innovative functions of teacher training. Also, the current problems of primary school teacher training in the modern era and ways to solve them are indicated.

KEY WORDS: primary education, teacher training, primary school teacher, pedagogical activity, innovative training, pedagogical process, education system, pedagogical technologies, educational principles

Müasir dövrdə təhsil cəmiyyətin intellektual potensialının formalaşmasını təmin edən əsas sosial institutlardan biri kimi çıxış edir. Təhsil sisteminin səmərəliliyi isə böyük ölçüdə müəllim amilindən asılıdır. Bu baxımdan müəllim hazırlığı yalnız peşəkar kadr yetişdirilməsi prosesi deyil, həm də cəmiyyətin gələcək inkişafına yönəlmiş strateji fəaliyyət sahəsi kimi qiymətləndirilir. Xüsusilə ibtidai təhsil mərhələsində fəaliyyət göstərən müəllimlərin peşə hazırlığı şagirdlərin şəxsiyyətinin formalaşmasına, onların təlim motivasiyasının inkişafına və sonrakı təhsil nailiyyətlərinə bilavasitə təsir göstərir.

Xüsusilə ibtidai sinif müəllimi uşağın məktəb həyatının başlanğıc mərhələsində onun şəxsiyyət kimi formalaşmasına, dünyagörüşünün inkişafına, mənəvi keyfiyyətlərinin yaranmasına və ilkin bilik, bacarıqlarının əldə edilməsinə bilavasitə təsir göstərir. Bu baxımdan ibtidai sinif müəlliminin peşəkar hazırlığı xüsusi əhəmiyyət kəsb edir.

İbtidai təhsil mərhələsi şagirdlərin gələcək təhsil həyatının təməlini təşkil edir. Bu mərhələdə müəllimin peşə hazırlığının keyfiyyəti təlim-tərbiyə prosesinin nəticələrinə birbaşa təsir göstərir. Müasir dövrdə müəllim yalnız bilik verən şəxs rolu oynamır, o, eyni zamanda, şagirdin inkişaf baxımından istiqamətlənməsi, yaradıcı düşüncəsini formalaşdıran, sosial münasibətlərini tənzimləyən pedaqoji rəhbərdir. Buna görə də ibtidai sinif müəllimlərinin hazırlığı elmi əsaslara söykənməli, müasir pedaqoji yanaşmaları əhatə etməli və təhsil sisteminin tələblərinə uyğun təşkil olunmalıdır.

"Müəllim hazırlığının keyfiyyəti tədris prosesinin səmərəliliyinə və şagird nailiyyətlərinə birbaşa təsir göstərən əsas amillərdəndir" [4, s. 15].

İbtidai sinif müəlliminin hazırlığında sosial münasibətlər şagirdlərin bir-biri, müəllim və ətraf mühitlə qarşılıqlı əlaqələri əsasında formalaşır. Bu münasibətlər uşaqların sosiallaşmasına, ünsiyyət bacarıqlarının inkişafına və kollektivdə davranış qaydalarını mənimsəməsinə mühüm təsir göstərir. İbtidai məktəb dövrü uşağın şəxsiyyət kimi formalaşmasının əsas mərhələlərindən biri olduğuna görə sosial münasibətlərin düzgün qurulması xüsusi əhəmiyyət daşıyır.

Müəllim şagirdlər arasında müsbət psixoloji mühit yaratmalı, onların birgə fəaliyyətini təşkil etməli və qarşılıqlı yardımlaşmanı həyata keçirməlidir. Qrup işləri, layihələr, oyunlar və müzakirələr şagirdlərin sosial bacarıqlarının inkişafında mühüm rol oynayır.

"Müasir müəllim yalnız fənn biliyinə deyil, həm də şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınan peşəkar kompetensiyalara malik olmalıdır" [3, s. 35].

İbtidai sinif müəlliminin hazırlığında sosial münasibətlərin düzgün qurulması həmçinin uşaqlarda məsuliyyət, intizam və empatiya bacarıqlarının formalaşmasında mühüm yer tutur. Müəllimin şagirdlərə fərdi yanaşması, həm də onların fikirlərinə hörmət bəsləməsi, problemlərin ədalətli həlli uşaqlarda özünəinamın inkişafına müsbət təsir göstərir.

İbtidai sinif müəllimi hazırlığının səmərəli təşkili müəyyən prinsiplərə, qanunauyğunluqlara və funksiyalara əsaslanır. Bu prinsiplər müəllim hazırlığının məzmununu, istiqamətlərini və metodlarını müəyyən edir. Eyni zamanda müəllim hazırlığının qanunauyğunluqları pedaqoji prosesin daxili əlaqələrini və inkişaf mexanizmlərini əks etdirir. Müəllim hazırlığının funksiyaları isə onun cəmiyyət və təhsil sistemi üçün yerinə yetirdiyi əsas vəzifələri idarə edir.

"Bilik və bacarıqlarını davamlı artıran müəllimlər təhsilalanların nailiyyətlərinə əlavə töhfə verirlər. Peşəkarlığa əsaslanan stimullaşdırıcı əmək haqqı sisteminin olmaması, təhsil müəssisəsi səviyyəsində idarəetmənin qeyri-effektivliyi, müəllim hazırlığı üzrə infrastrukturun zəif olması

müəllim amilinə təsir edən amillər sırasındadır. Bu baxımdan təhsil islahatı uğurla aparılan ölkələrdə müəllim peşəkarlığının inkişafı üçün stimulların yaradılmasına və müəllim hazırlığının təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir.

Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi göstərir ki, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal-interaktiv təlim metodları daha yüksək nəticələr verir. Həmin məqsədlə, davamlı olaraq mütərəqqi tədris metodlarının yaradılması və müəllimlərin sərişтəsinin artırılması təhsil siyasətində mühüm yer tutur" [1, s. 8].

İbtidai sinif müəllimi hazırlığının mahiyyəti

İbtidai sinif müəllimi hazırlığı dedikdə, gələcək müəllimlərin peşə fəaliyyətinə hazırlanması, onların pedaqoji, psixoloji, metodiki və kommunikativ bacarıqlarla təmin olunması prosesi nəzərdə tutulur. Bu hazırlıq ali pedaqoji təhsil müəssisələrində həyata keçirilir və nəzəri biliklərlə praktik fəaliyyətin vəhdətinə əsaslanır.

"Müəllim hazırlığı nəzəri biliklərin praktik fəaliyyətlə əlaqələndirilməsi əsasında qurulduqda daha səmərəli nəticələr əldə olunur" [2, s. 87].

Müasir müəllim hazırlığı yalnız fənn biliklərinin öyrədilməsi ilə məhdudlaşmır. Burada müəllimin pedaqoji etikası, ünsiyyət mədəniyyəti, yaradıcı düşüncəsi, innovativ texnologiyalardan istifadə bacarıqları və tədqiqatçılıq qabiliyyətləri də formalaşdırılır. İbtidai sinif müəllimi uşaqların yaş xüsusiyyətlərini dərindən bilməli, onların psixoloji inkişaf mərhələlərini nəzərə almalı və tətbiq etməyi bacarmalıdır.

İbtidai sinif müəllimi hazırlığı davamlı və sistemli xarakter daşıyır. Bu prosesdə nəzəri biliklər praktik fəaliyyətlə əlaqələndirilir, tələbələrin məktəb mühitində pedaqoji təcrübə keçməsi təmin edilir. Pedaqoji təcrübə gələcək müəllimlərin peşə bacarıqlarının formalaşmasında mühüm rol oynayır. Çünki tələbələr real məktəb şəraitində lazımi bilik və bacarıqlara yiyələnir və bunlar şagirdlərin gələcək inkişafları üçün özül rolunu oynayır.

İbtidai sinif müəllimi hazırlığının əsas prinsipləri

Humanistlik prinsipi. Bu prinsip ibtidai sinif müəllimi hazırlığının əsas metodoloji dayaqlarından biri hesab olunur. Eyni zamanda gələcək müəllimin şəxsiyyətyönümlü yanaşma əsasında formalaşdırılmasını, insan amilinin və fərdi xüsusiyyətlərin təhsil prosesində prioritet kimi qəbul edilməsini nəzərdə tutur. Humanist yanaşma müəllim və təhsilalan arasında qarşılıqlı hörmətə, əməkdaşlığa və etimada əsaslanan münasibətlərin qurulmasına şərait yaradır.

İbtidai təhsil mərhələsində fəaliyyət göstərəcək müəllimlərin humanist dəyərlər əsasında hazırlanması onların gələcək peşə fəaliyyətində hər bir şagirdə fərdi, həm də uşaqların hüquq və azadlıqlarına hörmətlə yanaşmasına imkan verir. Bu baxımdan humanistlik prinsipi yalnız müəllim hazırlığının deyil, bütövlükdə müasir təhsil sisteminin strateji istiqamətlərindən biri kimi çıxış edir.

Elmilik prinsipi müəllim hazırlığının məzmununun müasir elmi nailiyyətlərə və pedaqoji tədqiqatların nəticələrinə əsaslanmasını tələb edir. Gələcək müəllimlərin peşə hazırlığı prosesində nəzəri biliklərin elmi cəhətdən əsaslandırılmış şəkildə mənimsədilməsi onların peşə kompetensiyalarının formalaşmasında mühüm əhəmiyyət daşıyır.

Müasir dövrdə müəllim yalnız mövcud bilikləri ötürmür, eyni zamanda, təhlil edib, onların araşdırılması ilə məşğul olur. Buna görə də müəllim hazırlığında elmi təfəkkürün, tədqiqatçılıq bacarıqlarının və innovativ yanaşmaların inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Sistemlilik və ardıcıllıq prinsipi. İbtidai sinif müəllimi hazırlığında bilik, bacarıq və kompetensiyaların formalaşdırılması sistemli və məqsədyönlü şəkildə həyata keçirilməlidir. Bu prinsip müəllim hazırlığının bütün mərhələləri arasında qarşılıqlı təmin edilməni və tədris məzmununun məntiqi ardıcıllıqla qurulmasını tələb edir. Sistemli təşkil olunmuş hazırlıq prosesi gələcək müəllimlərin əldə etdikləri nəzəri bilikləri praktik fəaliyyətlə əlaqələndirməsinə və peşə fəaliyyətində səmərəli tətbiq etməsinə imkan yaradır. Ardıcıllıq isə peşə hazırlığının mərhələdən-mərhələyə inkişaf etməsini təmin edərək, müəllim kompetensiyalarının davamlı şəkildə təkmilləşməsinə şərait yaradır.

"Müəllimin peşəsinə bağlılığı və davamlı inkişafı təlim keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır" [5, s. 56].

Bu prinsip şagirdlərin bilikləri mərhələli şəkildə mənimsəməsinə, əvvəlki biliklər ilə yeni məlumatlar arasında əlaqə qurmasına və mövzuları daha dərindən anlamasına kömək edir.

Fəallıq və müstəqillik prinsipi. Müasir müəllim hazırlığında təhsilalanların fəal iştirakı və müstəqil fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Bu prinsip gələcək müəllimlərin tədqiqat aparmaq, problem həll etmək, qərar qəbul etmək və yaradıcı təşəbbüslər göstərmək bacarıqlarının inkişafını nəzərdə tutur. Fəallığa əsaslanan hazırlıq prosesi şagirdlərin yalnız hazır məlumatları mənimsəməsinə deyil, həm də biliklərin əldə olunması və tətbiqi prosesində birbaşa iştirakına imkan verir. Nəticədə onların peşəkar müstəqilliyi formalaşır və innovativ fəaliyyətə hazırlıq səviyyəsi yüksəlir.

Nəzəriyyə ilə praktikanın vəhdəti prinsipi

Müəllim hazırlığının səmərəli olması nəzəri biliklərlə praktik təcrübənin qarşılıqlı əlaqəsindən əhəmiyyətli dərəcədə asılıdır. Bu prinsip gələcək müəllimlərin pedaqoji bilikləri real təhsil mühitində tətbiq etməsini və peşə fəaliyyətinə uyğunlaşmasını təmin edir. Pedaqoji təcrübələr, müşahidələr və praktik fəaliyyətlər vasitəsilə tələbələr nəzəri hazırlıqlarını möhkəmləndirir, peşə bacarıqlarını inkişaf etdirirlər. Bu zaman nəzəri və praktik komponentlərin vəhdəti müəllimin peşəkar formalaşmasının əsas şərtlərindən biri kimi çıxış edir.

"Müəllim hazırlığında nəzəriyyə ilə praktikanın vəhdəti gələcək müəllimlərin peşəkar fəaliyyətə hazırlanmasının əsas şərtlərindən biridir" [8, s. 114].

İbtidai sinif müəllimi hazırlığının qanunauyğunluqları

Müəllim hazırlığının qanunauyğunluqları pedaqoji prosesin daxili əlaqələrini və inkişaf xüsusiyyətlərini əks etdirir.

Təhsil ilə cəmiyyətin qarşılıqlı əlaqəsi qanunauyğunluğu

Müəllim hazırlığının inkişaf istiqamətləri cəmiyyətin sosial, iqtisadi və mədəni dəyişiklikləri ilə sıx bağlıdır. Cəmiyyətdə baş verən yeniliklər təhsil sisteminin qarşısında yeni vəzifələr müəyyənləşdirir və bu dəyişikliklər müəllim hazırlığının məzmununa birbaşa təsir göstərir. Buna görə də müəllim hazırlığı proqramları əmək bazarının tələblərinə, rəqəmsallaşma proseslərinə və müasir təhsil tendensiyalarına uyğun olaraq daim yenilənməlidir.

Şəxsiyyətin inkişafı ilə təlimin qarşılıqlı əlaqəsi

Müəllim hazırlığı prosesində şagirdin şəxsiyyət kimi inkişafı ilə peşə hazırlığı arasında sıx əlaqə vardır. Təlim prosesi yalnız bilik verməklə məhdudlaşmır, həm də şagirdin dünyagörüşü, mənəvi keyfiyyətləri və sosial bacarıqlarını formalaşdırır.

Nəzəri və praktik hazırlığın qarşılıqlı əlaqəsi

Müəllim hazırlığında nəzəri biliklərin praktik fəaliyyətlə tamamlanması mühüm qanunauyğunluqdur. Yalnız nəzəri biliklər müəllimin peşəkar fəaliyyət üçün tam hazırlanmasını təmin edə bilməz. Praktik fəaliyyət zamanı müəllimin peşə bacarıqları formalaşır və möhkəmlənir.

Fasiləsiz inkişaf qanunauyğunluğu

Müasir təhsil mühitinin dinamik xarakteri müəllimlərin peşə fəaliyyətində davamlı inkişafı zəruri edir. Müəllim hazırlığı ali təhsil mərhələsi ilə məhdudlaşmır, əksinə, peşə fəaliyyəti boyunca davam edən öyrənmə və özünüinkişaf prosesini əhatə edir. Yeni pedaqoji yanaşmaların, təlim texnologiyalarının və elmi yeniliklərin mənimsənilməsi müəllimin peşəkar səriştələrinin daim yenilənməsinə və təkmilləşdirilməsinə şərait yaradır.

İbtidai sinif müəllimi hazırlığının funksiyaları

İbtidai sinif müəllimi hazırlığı bir sıra mühüm funksiyaları yerinə yetirir.

Təhsilvermə funksiyası

Bu funksiya gələcək müəllimlərin peşə fəaliyyəti üçün zəruri olan nəzəri biliklərə, metodik hazırlığa və praktik bacarıqlara yiyələnməsini təmin edir. Eyni zamanda qeyd olunan funksiya vasitəsilə müəllim peşəsinin elmi əsasları mənimsənilir və peşəkar fəaliyyət üçün zəruri kompetensiyalar formalaşdırılır.

Tərbiyəedici funksiya

İbtidai təhsildə tərbiyəedici funksiya təlim prosesi vasitəsilə şagirdlərdə mənəvi, əxlaqi, estetik, əmək və vətəndaşlıq keyfiyyətlərinin formalaşdırılmasına xidmət edir. Bu funksiya gələcək müəllimlərdə peşə etikası, humanist dəyərlər, məsuliyyət hissi və vətəndaş mövqeyinin formalaşdırılmasına xidmət edir. Müəllimin şəxsiyyəti təlim-tərbiyə prosesinin mühüm amili olduğundan, bu istiqamət xüsusi əhəmiyyət daşıyır. İbtidai sinif müəllimi dərs prosesində müxtəlif tapşırıqlar, qrup işləri və müzakirələr təqdim edərək, şagirdlərdə müsbət dəyərləri formalaşdırır. Hansı ki, bu dəyərlər onların gələcək həyatı üçün mühüm əhəmiyyətə sahibdir.

Bu funksiyanın həyata keçirilməsi nəticəsində şagirdlər öz davranışlarına tənqidi yanaşmağı, kollektivdə işləməyi, başqalarının fikirlərinə hörmət etməyi və cəmiyyət qarşısında məsuliyyət daşımağı öyrənirlər.

İnkişafetdirici funksiya

İnkişafetdirici funksiya şagirdlərin idrak proseslərinin təkmilləşdirilməsinə, analitik və tənqidi düşünmə bacarıqlarının formalaşmasına, həmçinin onların yaradıcı potensialının üzə çıxarılmasına xidmət edir.

İbtidai təhsildə inkişafetdirici funksiya təlim prosesində şagirdlərin intellektual, psixoloji, emosional və yaradıcı qabiliyyətlərinin inkişaf etdirilməsinə doğru hərəkət edən bir funksiyadır. Bu funksiya uşaqların yalnız bilik əldə etməsini deyil, həm də düşünmə, təhlil etmə, müqayisə aparma, nəticə çıxarma və problem həll etmə bacarıqlarının yaranması və inkişafına da xidmət edir.

İnkişafetdirici funksiya vasitəsilə şagirdlərin diqqəti, yaddaşı, təfəkkürü, nitqi, təxəyyülü və yaradıcılıq qabiliyyətləri inkişaf etdirilir. Müxtəlif təlim üsulları, oyunlar, layihələr, tədqiqat xarakterli tapşırıqlar və praktik fəaliyyətlər uşaqların fəallığını artıraraq, onların müstəqil düşünmə bacarıqlarını gücləndirir.

İnkişafetdirici funksiya şagirdlərin fərdi xüsusiyyətlərinin və potensial imkanlarının üzə çıxarılmasına, özünüifadə və özünüreallaşdırma bacarıqlarının formalaşmasına da xidmət edir. O zaman ibtidai təhsil şagirdlərin hərtərəfli inkişafını təmin edir və onların sonrakı təhsil mərhələlərinə uğurla uyğunlaşmasına şərait yaradır.

Bu funksiya şagirdlərin yaradıcı düşüncə, tənqidi təfəkkür və kommunikativ bacarıqlarının inkişafına yönəlir. Müasir müəllim müstəqil düşünməyi və müxtəlif pedaqoji situasiyalarda düzgün qərar qəbul etməyi bacarmalıdır.

İnnovativ funksiya

Bu funksiya ibtidai təhsildə müəllim hazırlığında müasir pedaqoji texnologiyaların və innovativ yanaşmaların mənimsənilməsinə yönəlir. Eyni zamanda müəllimlərin dəyişən təhsil mühitinə uyğunlaşmasına, yeni metodlardan istifadə etməsinə və tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

İnnovativ funksiya təlimin məzmununun və təşkili formalarının müasirləşdirilməsini, informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadəni, yaradıcı və tənqidi düşüncənin inkişafını əsas götürür. Müəllim interaktiv üsullar, layihə əsaslı öyrənmə, tədqiqat fəaliyyətləri və rəqəmsal resurslardan istifadə etməklə, şagirdlərin dərs marağını artırır və onların fəal iştirakını təmin edir.

Bu funksiya şagirdlərdə yeniliklərə açıq olmaq, müstəqil öyrənmək, problem həll etmək və dəyişən şəraitə uyğunlaşmaq kimi bacarıqların inkişafına yol açır.

İbtidai təhsil müasir dövrün tələblərinə cavab verən, yaradıcı düşünən və innovativ fəaliyyətə meylli şəxsiyyətlərin yetişdirilməsinə şərait yaradır.

Sosiallaşdırıcı funksiya

İbtidai təhsildə sosiallaşdırıcı funksiya şagirdlərin cəmiyyətə uyğunlaşmasını, sosial münasibətlər sisteminə inteqrasiya olunmasını və ictimai davranış normalarını mənimsəməsini təmin edən funksiyadır. Bu funksiya vasitəsilə uşaqlar cəmiyyətdə yaşamaq, əməkdaşlıq etmək və sosial məsuliyyət daşımaq bacarıqlarını inkişaf etdirirlər.

Sosiallaşdırıcı funksiya şagirdlərdə ünsiyyət mədəniyyətinin, kollektivdə işləmək bacarığının, qarşılıqlı hörmətin, tolerantlığın və əməkdaşlığın formalaşmasına şərait yaradır. Dərs və dərsdənkənar fəaliyyətlər zamanı uşaqlar müxtəlif sosial rolları mənimsəyir, hüquq və vəzifələrini dərk edir, davranışlarını ictimai normalara uyğun qurmağı öyrənirlər.

Bu funksiya həmçinin şagirdlərin milli-mənəvi dəyərlərə, adət-ənənələrə və vətəndaşlıq məsuliyyətinə yiyələnməsinə kömək edir.

Diaqnostik funksiya

Müəllim hazırlığı prosesində tələbələrin bilik, bacarıq və peşəkar keyfiyyətlərinin müəyyənləşdirilməsinə xidmət edir. Bu funksiya gələcək müəllimlərin inkişaf istiqamətlərini aşkara çıxarmağa imkan verir.

Diaqnostik funksiya vasitəsilə müəllim hazırlığı prosesində tələbələrin əldə etdikləri nailiyyətlər, qarşılaşdıqları çətinliklər və inkişaf ehtiyacları aşkar edilir.

Diaqnostik funksiyanın həyata keçirilməsi müxtəlif qiymətləndirmə üsullarından, müşahidələrdən, müsahibələrdən və təhlil metodlarından istifadəni nəzərdə tutur. Bu proses tələbələrin

nəzəri hazırlıq səviyyəsini, pedaqoji fəaliyyətə hazırlığını və peşəkar kompetensiyalarının formalaşma dərəcəsini müəyyən etməyə imkan verir.

Eyni zamanda diaqnostik funksiya müəllim hazırlığı proqramlarının səmərəliliyinin qiymətləndirilməsində də mühüm rol oynayır. Əldə olunan nəticələr əsasında tədris prosesində zəruri düzəlişlər aparılır, təlim metodları təkmilləşdirilir və gələcək müəllimlərin peşəkar inkişafı üçün daha əlverişli şərait yaradılır.

Proqnostik funksiya

Müəllimin gələcək peşə fəaliyyətinə hazırlanmasını, təhsil sahəsində baş verə biləcək dəyişikliklərə uyğunlaşma qabiliyyətinin formalaşdırılmasını təmin edir. Bu funksiya müəllim hazırlığının məzmununun gələcək təhsil ehtiyaclarına uyğun qurulmasını təmin edir. Müasir dövrdə təhsil sistemində baş verən yeniliklər, rəqəmsal texnologiyaların tətbiqi və təlim metodlarının inkişafı müəllimlərin daim yenilənən bilik və bacarıqlara malik olmasını tələb edir. Bu baxımdan proqnostik funksiya gələcək müəllimlərin dəyişən təhsil mühitinə uyğunlaşmasına şərait yaradır.

Həmin funksiya vasitəsilə müəllim hazırlığında perspektiv istiqamətlər müəyyənləşdirilir, peşəkar inkişafın mümkün yolları planlaşdırılır və gələcək fəaliyyətin səmərəli şəkildə təşkilinin artırılması üçün zəruri tədbirlər həyata keçirilir. Nəticədə müəllimlər yalnız mövcud tələblərə deyil, həm də gələcəkdə yarana biləcək təhsil çağırışlarına cavab verməyə hazır olurlar.

Kommunikativ funksiya

Gələcək müəllimlərdə səmərəli ünsiyyət qurmaq, əməkdaşlıq etmək və pedaqoji münasibətləri düzgün təşkil etmək bacarıqlarını inkişaf etdirir.

Bu funksiya gələcək müəllimlərdə səmərəli ünsiyyət bacarıqlarının formalaşdırılmasına və inkişaf etdirilməsinə xidmət edir. Müəllimin peşə fəaliyyətinin uğuru böyük ölçüdə onun şagirdlər, valideynlər, həmkarlar və məktəb rəhbərliyi ilə düzgün kommunikasiya qurmaq bacarığından asılıdır.

Kommunikativ funksiya müəllim hazırlığı prosesində pedaqoji ünsiyyət mədəniyyətinin formalaşdırılmasını, qarşılıqlı anlaşma və əməkdaşlıq bacarıqlarının inkişaf etdirilməsini nəzərdə tutur. Bu funksiya vasitəsilə gələcək müəllimlər fikirlərini aydın və məntiqli şəkildə ifadə etməyi, dinləmə bacarıqlarından səmərəli istifadə etməyi və müxtəlif pedaqoji vəziyyətlərdə düzgün ünsiyyət strategiyaları seçməyi öyrənirlər.

Eyni zamanda kommunikativ funksiya müəllimlərin kollektiv fəaliyyətə hazırlanmasında mühüm rol oynayır. Müasir təhsil mühitində əməkdaşlıq, komanda işi və təcrübə mübadiləsi pedaqoji fəaliyyətin vacib tərkib hissəsidir. Buna görə də müəllim hazırlığında kommunikativ bacarıqların inkişaf etdirilməsi peşəkar fəaliyyətin keyfiyyətinin yüksəldilməsinə və təhsil prosesinin daha səmərəli təşkilinə şərait yaradır.

İnteqrativ funksiya

Pedaqogika, psixologiya, metodika və digər elm sahələri üzrə biliklərin qarşılıqlı əlaqədə mənimsənilməsini təmin edir.

Bu funksiya müəllim hazırlığı prosesində müxtəlif elm sahələri üzrə biliklərin, bacarıqların və dəyərlərin qarşılıqlı əlaqədə mənimsənilməsini təmin edir. İnteqrativ funksiya nəzəri hazırlıqla praktik fəaliyyət arasında əlaqənin gücləndirilməsinə xidmət edir. Bu funksiya vasitəsilə tələbələr müxtəlif fənlər üzrə əldə etdikləri bilikləri pedaqoji fəaliyyət zamanı tətbiq etməyi öyrənirlər.

Nəticədə onların analitik düşünmə, problem həll etmə və yaradıcı fəaliyyət bacarıqları inkişaf edir.

Müasir təhsil şəraitində inteqrativ funksiyanın əhəmiyyəti daha da artır. Təlim prosesində fənlərarası əlaqələrin qurulması, innovativ təlim metodlarının tətbiqi və kompetensiya əsaslı yanaşmanın həyata keçirilməsi bu funksiyanın reallaşdırılmasına imkan verir.

İbtidai təhsil cəmiyyətin fəal üzvü olan, sosial münasibətləri düzgün quran və ictimai həyata uğurla inteqrasiya edən şəxsiyyətin formalaşmasına mühüm töhfə verir.

Müəllim hazırlığı gələcək müəllimlərin cəmiyyətə uyğunlaşmasına və sosial münasibətlər sistemində fəal iştirak etməsinə kömək edir. Gələcək müəllimlər informasiya-kommunikasiya texnologiyalarından istifadə etməyi və innovativ metodları dərs prosesində tətbiq etməyi bacarmalıdırlar.

Müasir təhsil sistemində həyata keçirilən islahatlar və qloballaşma prosesləri ibtidai sinif müəllimi hazırlığı qarşısında yeni tələblər qoyur. Bu tələblərə baxmayaraq, müəllim hazırlığı sahəsində bir sıra problemlər mövcuddur ki, onların həlli təhsilin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Əsas problemlərdən biri müəllim hazırlığı proqramlarında nəzəri biliklərlə praktik fəaliyyət arasında tarazlığın tam təmin olunmamasıdır. Bəzi hallarda şagirdlər kifayət qədər nəzəri bilik əldə etsələr də, real məktəb mühitində fəaliyyət göstərmək üçün zəruri praktik təcrübəyə malik olmurlar.

Digər mühüm problemlərdən biri informasiya-kommunikasiya texnologiyalarından istifadə bacarıqlarının kifayət qədər inkişaf etdirilməməsidir. Rəqəmsal texnologiyaların təhsil prosesində geniş formada tətbiqi müəllimlərdən müasir elektron resurslardan və innovativ təlim vasitələrindən səmərəli istifadəni əsas götürür. Buna görə də müəllim hazırlığında rəqəmsal kompetensiyaların inkişafına xüsusi diqqət yetirilməlidir.

Müəllim hazırlığı sahəsində müşahidə olunan problemlərdən biri də peşəkar inkişafın fasiləsizliyinin tam təmin olunmamasıdır. Müasir dövrdə müəllim yalnız ali təhsil dövründə əldə etdiyi biliklərlə kifayətlənməli deyil, həm də öz üzərində işləməli və yeni pedaqoji yanaşmaları mənimsəməlidir.

Qeyd olunan problemlərin aradan qaldırılması məqsədilə müəllim hazırlığı proqramlarının məzmununun müasirləşdirilməsi, pedaqoji təcrübənin həcminin artırılması, rəqəmsal texnologiyalar üzrə hazırlığın gücləndirilməsi və müəllimlərin davamlı peşəkar inkişafını dəstəkləyən mexanizmlərin təkmilləşdirilməsi vacibdir. Eyni zamanda ali təhsil müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əməkdaşlığın genişləndirilməsi gələcək müəllimlərin praktik hazırlıq səviyyəsinin yüksəldilməsinə mühüm töhfə verə bilər.

Müasir dövrdə ibtidai sinif müəllimi hazırlığının inkişaf istiqamətləri

Müasir təhsil sistemində baş verən dəyişikliklər ibtidai sinif müəllimlərinin hazırlığına yeni tələblər irəli sürür. Qloballaşma, rəqəmsallaşma və təhsil texnologiyalarının sürətli inkişafı müəllimlərin yalnız fənn biliklərinə malik olmasını deyil, həm də innovativ pedaqoji yanaşmaları tətbiq etmək bacarığına yiyələnməsini zəruri edir. Bu baxımdan müəllim hazırlığı proqramlarının məzmununun müasir çağırışlara uyğun yenilənməsi xüsusi əhəmiyyət kəsb edir.

İbtidai sinif müəlliminin peşəkar hazırlığında rəqəmsal səriştələrin formalaşdırılması prioritet istiqamətlərdən biridir. Müəllim elektron tədris resurslarından səmərəli yararlanmalı, distant və hibrid təlim mühitində tədris prosesini təşkil edə bilməlidir. Bununla yanaşı, şagirdyönümlü təlimin həyata keçirilməsi üçün kommunikativ, tədqiqatçılıq və problem həll etmək bacarıqlarının inkişaf etdirilməsi vacib hesab olunur.

Müəllim hazırlığında reflektiv fəaliyyətin təşviqi də mühüm rol oynayır. Reflektiv yanaşma müəllimə öz fəaliyyətini təhlil etməyə, güclü və zəif tərəflərini müəyyənləşdirməyə, peşəkar inkişaf istiqamətlərini planlaşdırmağa imkan verir. Bu xüsusiyyət müasir müəllimin peşəkar keyfiyyətlərindən biri kimi qiymətləndirilir.

İbtidai sinif müəllimi hazırlığının inkişafı ənənəvi və innovativ yanaşmaların vəhdəti əsasında həyata keçirilməli, müəllimlərin peşəkar səriştələrinin davamlı şəkildə təkmilləşdirilməsi təmin edilməlidir.

Beləliklə, ibtidai sinif müəllimi hazırlığının prinsipləri, qanunauyğunluqları və funksiyaları qarşılıqlı əlaqədə fəaliyyət göstərərək gələcək müəllimlərin peşəkar formalaşmasının nəzəri və praktik əsaslarını müəyyən edir. Müasir təhsil çağırışları müəllim hazırlığının məzmununun davamlı yenilənməsini, innovativ yanaşmaların tətbiqini və peşəkar inkişaf mexanizmlərinin təkmilləşdirilməsini zəruri edir. Bu istiqamətdə həyata keçirilən tədbirlər ibtidai təhsilin keyfiyyətinin yüksəldilməsinə və rəqabətqabiliyyətli müəllim kadrlarının hazırlanmasına mühüm töhfə verə bilər.

NƏTİCƏ

Məqalədən alınan əsas nəticələr aşağıdakılardır:

1. Aparılan təhlil göstərir ki, ibtidai sinif müəllimi hazırlığının prinsipləri, qanunauyğunluqları və funksiyaları gələcək müəllimlərin peşəkar kompetensiyalarının formalaşmasında mühüm rol oynayır.
2. Humanistlik, elmilik, sistemlilik və nəzəriyyə ilə praktikanın vəhdəti prinsiplərinə əsaslanan hazırlıq prosesi müəllimin pedaqoji fəaliyyətinin səmərəliliyini artırır və təhsil keyfiyyətinin yüksəldilməsinə xidmət edir.
3. Müasir təhsil mühitində ibtidai sinif müəllimi hazırlığının təkmilləşdirilməsi innovativ yanaşmaların tətbiqini, pedaqoji təcrübənin gücləndirilməsini və müəllimlərin fasiləsiz peşəkar inkişafının təmin edilməsini tələb edir. Bu istiqamətdə həyata keçirilən tədbirlər müəllim hazırlığının keyfiyyətinin yüksəldilməsinə və təhsil sisteminin müasir tələblərə uyğunlaşdırılmasına şərait yaradır.
4. İbtidai sinif müəllimi hazırlığının prinsipləri, qanunauyğunluqları və funksiyaları müəllimin peşəkar formalaşmasının nəzəri-metodoloji əsasını təşkil edir. Bu komponentlərin qarşılıqlı əlaqədə həyata keçirilməsi pedaqoji fəaliyyətin keyfiyyətini yüksəldir və təhsil prosesinin müsbət şəraitdə inkişafına zəmin yaradır.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası. – Bakı, 2013. – 16 s.

2. Cochran-Smith, M., Zeichner, K.M. (Eds.). Studying Teacher Education: The Report of the AERA Panel on Research and Teacher Education. – Mahwah, NJ: Lawrence Erlbaum Associates, 2005. – 804 p.

3. Darling-Hammond, L., Bransford, J. (Eds.). Preparing Teachers for a Changing World: What Teachers Should Learn and Be Able to Do. San Francisco, CA: Jossey-Bass, 2005. - 640 p.

4. Darling-Hammond, L. Powerful Teacher Education: Lessons from Exemplary Programs, - San Francisco, California, CA: Jossey-Bass, 2006. - 419 p.

5. Day, C.A. Passion for Teaching. – London: RoutledgeFalmer, 2004. – 272 p.

6. Good, T.L., Brophy, J.E. Looking in Classrooms. 10th ed. – Boston, MA: Pearson Education, 2008. – 528 p.

7. Hargreaves, A., Fullan, M. Professional Capital: Transforming Teaching in Every School. – New York: Teachers College Press, 2012. – 240 p.

8. Korthagen, F.A.J., Kessels, J., Koster, B., Lagerwerf, B., Wubbels, T. Linking Practice and Theory: The Pedagogy of Realistic Teacher Education. – Mahwah, NJ: Lawrence Erlbaum Associates, 2001. – 296 p.

9. Pollard, A. Reflective Teaching in Schools. – London: Bloomsbury Academic, 2014. – 560 p.